# Daşkəsəndə şəhid ailələri və qazilərə xüsusi diqqət göstərilir





Ölkəmizin bütün bölgələrində olduğu kimi, Daşkəsəndə də şəhid ailələrinə, qazi və müharibə iştirakçılarına xüsusi diqqət və qayğıkeşliklə yanaşılır. Keçirilən görüşlərdə onların arzu və istəkləri dinlənilir, problemləri həll edilir.

Şəhidlərin adlarının əbədiləşdirilməsi istiqamətində də tədbirlər görülür. Elə bu günlərdə şəhidlərlə bağlı daha bir müqəddəs yerin - şəhid ailələri və qazilər üçün "Görüş yeri"nin və Daşkəsən şəhidlərinin Xatirə guşəsinin açılışı olmuşdur. Açılışda Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu, Qafqaz Müsəlmanları İdarəsi sədrinin Qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Hacı Tahir Abbasov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin nümayəndələri, qazilər, müharibə veteranları, eləcə də rayon ağsaqqalları iştirak etmişlər.

Tədbirdə çıxış edən Əhəd Abıyev Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsinin xalqımızın qəlbində daim yaşayacağını diqqətə çatdırmışdır. Şəhid ataları adından Etibar Cəfərov, İlham Cabbarov, şəhid anaları adından Kifayət Haqverdiyeva, Qızbəs Abbasova, qazilər adından Ceyhun Əliyev çıxış edərək onlara göstərilən həssas münasibətə, yüksək diqqətə görə minnətdarlıqlarını bildirmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2022.- 3 sentyabr.- S.8.